# YAP Səbail rayon təşkilatının dəstəyi ilə bir qrup Cocuq Mərcanlı məktəblisi Bakıda olub





17-19 may tarixlərində Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının və C.Əskərov adına 50 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin rəhbərliyinin və müəllim-şagird heyətinin Bakıya səfəri baş tutub. Rayon təşkilatından verilən məlumata görə, səfər iştirakçıları əvvəlcə YAP Səbail rayon təşkilatının qonağı olublar. Burada YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, təşkilatın İdarə Heyətinin üzvləri və partiyanın gənc fəalları ilə görüşüblər.

Həmçinin C.Əskərov adına 50 nömrəli tam orta məktəbdə keçirilən "Sinəsi dağlanmasın, bölünməsin bu torpaq" adlı tədbirdə olublar. Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Eldar Ağayev, Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev, o cümlədən Azərbaycan Dillər Universitetinin Cocuq Mərcanlıda pedaqoji təcrübə keçən bir qrup tələbəsi iştirak ediblər. Səfər çərçivəsində 50 nömrəli tam orta məktəb ilə Cocuq Mərcanlı kənd tam orta məktəbi arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Tədbir bədii hissə ilə davam edib.

Daha sonra qonaqlar üçün şəhər gəzintisi təşkil olunub.

Qeyd edək ki, 3 günlük səfər proqramında Azərbaycan Xalça Muzeyinə, Atəşgah məbədinə, "Qala" qoruğuna və Yanardağa ziyarətlər nəzərdə tutulub. Eyni zamanda, Cocuq Mərcanlı məktəbliləri "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində yayımlanacaq verilişdə qonaq olacaqlar.

**MÜŞFİQƏ**

# YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib





Mayın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində yerləşən abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər, sonra konfrans Şəmkir şəhərindəki Heydər Əliyev Mərkəzində davam edib.

Konfransın işində YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, millət vəkilləri Sona Əliyeva, Kamran Bayramov iştirak ediblər.

İlk olaraq YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin konfranslararası dövrdəki fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Daha sonra YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin sədri Emin İsmayılov hesabat məruzəsi ilə çıxış edib.

Hesabat məruzəsindən sonra Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, Milli Məclisin deputatları Sona Əliyeva, Kamran Bayramov, fəal gənclərdən Aysel Əlizadə, Pərviz Əvəzli, Tofiq Rəsulov və digərləri çıxış edərək ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatında gənclərin uğurlarından danışıblar, rayon təşkilatı Gənclər Birliyinin fəaliyyətini təqdir etməklə yanaşı, qarşıda duran aktual məsələləri diqqətə çatdırıblar.

Konfransda təşkilati məsələlərə də baxılıb. Emin İsmayılov yenidən YAP Şəmkir rayon təşkilatı Gənclər Birliyinin sədri, həmçinin rayon təşkilatı Gənclər Birliyinin yeni tərkibdə Şurası və İdarə Heyəti seçilib. Konfransda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin konfransına nümayəndələr müəyyənləşib.

Sonda bir qrup YAP fəalına fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

# Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Oğuz rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

YAP Oğuz rayon təşkilatının üzvləri konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ümummilli Liderin xatirəsini ehtiramla yad ediblər.

Konfransda giriş sözü ilə çıxış edən YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov Gənclər Birliyinin fəaliyyəti haqqında fikirlərini səsləndirib və konfransın işinə uğurlar arzulayıb.

Konfransda YAP Oğuz rayon təşkilatının Gənclər Birliyinin sədri Mehman Ramazanov, Oğuz rayon İcra Hakimiyyətinin başçısının müavini Yusif Naxçıvanski, fəal gənclərdən Elşən Alcanov, Cavid Həmidov, Sənan Ramazanov və digərləri çıxış ediblər.

Konfransda Elşən Alcanov YAP Oğuz rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Eyni zamanda, 21 nəfərdən ibarət Şuranın üzvləri, 7 nəfərdən ibarət İdarə Heyəti, YAP Gənclər Birliyinin ümumrespublika konfransına 2 nəfər nümayəndə seçilib.

# YAP Xocavənd rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Xocavənd rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ümummilli Liderin xatirəsini ehtiramla yad ediblər.

Konfransı giriş sözü ilə açan YAP Xocavənd rayon təşkilatının sədri Azər Süleymanov partiyanın işində gənclərin rolu barədə fikirlərini bildirib.

Tədbirdə YAP Xocavənd rayon təşkilatı Gənclər Birliyinin sədri Vüsal Hüseynov hesabat məruzəsi ilə çıxış edib.

Sonra Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, fəal gənclərdən Anar İbrahimov, Ləman Quliyeva, Gültəkin Qaraşova və digərləri çıxış edərək görülən işlərə münasibət bildiriblər.

Konfransda Vüsal Hüseynov YAP Xocavənd rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib. Eyni zamanda, 9 nəfərdən ibarət Şuranın üzvləri, 7 nəfərdən ibarət İdarə Heyəti, YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr seçilib. Konfransda YAP sıralarına yeni qoşulan gənclərə partiya vəsiqələri təqdim olunub.

# Həqiqət uğrunda mübarizə aparan şair







Mayın 16-da Bakı şəhəri, 94 nömrəli orta məktəbdə Azərbaycan xalqının çoxəsrlik ənənələrinə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbirdə çıxış edən məktəbin direktoru Şəmsəddin Vəliyev Nəsiminin poeziyasının elmliyi, fəlsəfiliyi, poetikliyi, orijinallığının həmişə yüksək qiymətləndirildiyini deyib. O bildirib ki, Nəsimi təkcə Azərbaycanda deyil, dünyada tanınan şairlər sırasındadır: **"UNESCO tərəfindən dahi şairin adı görkəmli şəxsiyyətlərin siyahısına daxil edilib. 1973-cü ildə Nəsiminin anadan olmasının 600 illiyi beynəlxalq miqyasda qeyd olunub. Prezident İlham Əliyev ötən il noyabrın 15-də dahi şairin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Bununla yanaşı, ölkəmizdə 2019-cu il "Nəsimi ili" elan edilib".**

Azərbaycanda İmadəddin Nəsiminin adının əbədiləşdirildiyini və "Nəsimi ili" çərçivəsində tədbirlərin keçirildiyini diqqətə çatdıran məktəbin direktoru belə tədbirlərin davamlı olacağını da vurğulayıb.

Sonra bədii hissə ilə davam edən tədbirdə şairin həyat və yaradıcılığı haqqında məlumat verilib, məktəbin şagirdlərinin ifasında Nəsimiyə aid səhnəciklər göstərilib, şairin əsərləri səsləndirilib, videoçarxlar nümayiş olunub.

Daha sonra Azərbaycan-Gürcüstan ədəbi əlaqələrinin inkişafında xüsusi xidmətləri olan, "Şöhrət" ordenli şair Ramiq Muxtar, Yazıçılar Birliyinin üzvü Səməndər Məmmədov, Bakı şəhər 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin bədii rəhbəri, "Çiçəyim" Uşaq Teatr Studiyasının rəhbəri Rəna Kərimova, məktəbin Azərbaycan dili-ədəbiyyat müəlliməsi Sahilə Məmmədova çıxış edərək həqiqət uğrunda, azadlıq naminə mübarizə aparan şairin ədəbi irsinin şagirdlərə aşılamasının vacibliyini qeyd ediblər. Onlar mütəfəkkir şairin zəngin mənəvi irsinin bu gün də insanların mənəvi və əxlaqi cəhətdən kamilləşməsində böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində məktəbin texnologiya müəlliməsi Tərgül Hüseynovanın rəhbərliyi ilə şagirdlərin hazırladığı əl işlərindən ibarət sərgi də nümayiş olunub.

# Avropa Gənclər Yay Olimpiya Festivalının biletləri iyunun 10-da satışa çıxarılacaq




Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi ilə "iTicket" bilet satış şirkəti arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, razılığa əsasən, "iTicket.az" şirkəti "Bakı 2019" Avropa Gənclər XV Yay Olimpiya Festivalının rəsmi bilet satışının təminatçısı və dəstəkçisi olub.

Gənclər və idman naziri Azad Rəhimov "iTicket.az" şirkəti ilə razılığın əldə olunmasından məmnunluğunu bildirərək deyib: **"Biz açılış və bağlanış mərasimləri üçün ən münasib qiymətləri müəyyənləşdirmişik. Həmçinin bütün idman yarışlarına pulsuz biletlərin olmasını planlaşdırırıq. Ümid edirik ki, bütün bunlar yerli və xarici idman azarkeşlərində festivala daha çox maraq cəlb edəcək və bu möhtəşəm idman oyunlarını şəxsən izləmələri üçün şərait yaradacaq".**

"iTicket.az" şirkətinin baş direktoru Ziya Məmmədov saytın Bakıda keçiriləcək Avropa Gənclər XV Yay Olimpiya Festivalının rəsmi dəstəkçisi olmasından qürur duyduğunu vurğulayıb: **"Əvvəlki vaxtlarda keçirilmiş belə beynəlxalq tədbirlərdən əldə etdiyimiz təcrübəmiz bizə "Bakı 2019"da öhdəliklərimizi uğurla yerinə yetirəcəyimizə dair inam yaradır".**

Festivalın yarışlarına ümumilikdə 146 min bilet satışa çıxarılacaq. Biletlərin təxminən yarısı iyunun 10-dan "Bakı 2019"un rəsmi saytında https://www.eyofbaku2019.com və iTicket.az rəsmi saytında https://www.iticket.az satışda olacaq. Bundan başqa, bütün idmansevərlər biletləri "Park Bulvar", "Gənclik", "28 May" ticarət mərkəzlərindən və paytaxtın müxtəlif ərazilərindəki 12 bilet satışı məntəqəsindən əldə edə biləcəklər.

Açılış mərasiminə bir biletin qiyməti 10-15, bağlanış mərasiminə isə 5-10 manat arasında olacaq. Hər iki mərasim "Baku Crystal Hall"da keçiriləcək.

Biletlərin sifarişi və əldə olunması ilə bağlı əlavə məlumat "Bakı 2019"un rəsmi səhifəsində elan ediləcək.

Qeyd edək ki, 2016-cı ildən fəaliyyət göstərən "iTicket.az" konsert, teatr, idman və əyləncəvi təşkilatların bilet satışını onlayn və oflayn qaydada həyata keçirir. 2017-ci ildən etibarən iTicket.az IV İslam Həmrəyliyi Oyunlarının, Formula 1 üzrə Azərbaycan Qran-Prisinin, qadın voleybolçular arasında Avropa çempionatının (2017), UEFA Çempionlar Liqasının qrup mərhələsinin oyunlarının, BMX velosipedi üzrə dünya çempionatının, "Jara-18" beynəlxalq musiqi festivalının, Azərbaycan Cüdo Federasiyasının və AFFA-nın rəsmi bilet təminatçısı və dəstəkçisi olub.

İyulun 21-27-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalında iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# "Bakcell"dən eşitmə məhdudiyyətli gənclər arasında ənənəvi futzal turnirinə dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti eşitmə məhdudiyyətli gənclər arasında keçirilən futzal üzrə ənənəvi "Yaz turniri"nə növbəti dəfə dəstək göstərib.

AFFA-nın, Sahə Futbol Federasiyaları İctimai Birliyinin və Bakcell şirkətinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman sarayında keçirilmiş futzal turnirində "Bakı", "Azəri", "Zirvə", "Şimşək" və "Ümid" komandaları mübarizə aparıb.

Turnirin nəticəsi olaraq, "Azəri" komandası birinci, "Şimşək" komandası ikinci, "Zirvə" komandası isə üçüncü yeri tutub. "Azəri" komandasının üzvü Rabil Şabanov ən yaxşı qapıçı, "Şimşək"dən Ümid İbrahimov isə ən yaxşı oyunçu adına layiq görülüb. Turnirin ən məhsuldar futbolçusu "Azəri" komandasının üzvü Rəvan Muxtarlı olub.

Özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Bakcell şirkəti Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərməyə və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş mühüm layihələri həyata keçirməyə davam edəcək.